

■ Vidadi Babanlı

### AÇIL, BƏXTİM!

Nə müddətdi bağlanıbsan,
Qərəzliklə dağlanıbsan,
Künc-bucaqda saxlanıbsan,
Açıl, bəxtim, açıl, bəxtim!
Al şəfəq ol, saçıl, bəxtim!

Bərkdə-boşda çox sınandın,
Gah danlandın, gah qınandın,
Yalanlara tez inandın,
Açıl, bəxtim, açıl, bəxtim!
Al şəfəq ol, saçıl, bəxtim!

Gəlib çatır qos-qocalıq,
Ummuram ondan ucalıq,
Ömür-gündən azdı qalıq,
Açıl, bəxtim, açıl, bəxtim!
Al şəfəq ol, saçıl, bəxtim!

Zayıllar at oynatdılar,
Şər qazanı qaynatdılar.
Halala haram qatdılar,
Açıl, bəxtim, açıl, bəxtim!
Al şəfəq ol, saçıl, bəxtim!

Şux Babanlı sərt davrandı,
Namərdlərlə mərd davrandı,
İndi başqa bir dövrandı,
Açıl, bəxtim, açıl, bəxtim!
Al şəfəq ol, saçıl, bəxtim!

### ŞAHANƏ KÖNLÜM

Gəl öpüm ləkəsiz açıq alnından
Ey mənim ərköyün şahanə könlüm.
Sən düzə düz dedin, əyriyə əyri,
Gətirmədin dilə bəhanə, könlüm.

Şərəflə yaşadın, şanla qocaldın,
Dözümsüz hallara dözüb ucaldın.
Xəbis ürəklərdən vacib öc aldın,
Həqiqət oduna pərvanə könlüm.

Gah bəmə kökləndin, gah zildə dindin,
Gah da bir cilovsuz hirs atı mindin.
“Yenilməz” kəsləri inadla yendin,
Söyləyim şəninə daha nə, könlüm?

Çevirdin vərdişə səbri, təmkini,
Qoymadın yaxına qərəzi, kini.
Bəşər az tanıyır sənin təkini,
Cılız şöhrətlərə biganə könlüm.

Dövrəndə haqsızlıq çox dolaşsa da,
Məğrur Babanlını vermədin bada.
Tayın-bərabərin yoxdu dünyada,
Vallah, yeganəsən, yeganə könlüm!

### TƏSƏLLİ

Sınma, zərif qəlbim, nadan sözündən,
Səsləyir qənşərdən əsrlər səni.
Kütbeyin bəndələr çoxdu həyatda,
Qorxutmasın kəmlər-kəsrlər səni.

Şair var, sorağı eldən gəlmədi,
Şeiri nur saçıb üzə gülmədi.
Ögeylik toruna sala bilmədi
Xalqıma yabançı təsirlər səni.

Yaxşıya pis dedi tikanlı dillər,
İncə xal sayıldı üzdəki çillər.
Qəm yemə, Babanlı, ötəcək illər,
Qürurla anacaq nəsillər səni.

### SİNƏM BİR KİTABDI

Sinəm bir kitabdı, vərəqi sonsuz,
İncə mətləbləri şərh edilməyib.
Maraqsız olardı həyatım onsuz,
Bu sənət yoxuşu heç gedilməyib.

Başıma bəladı şıltaq ilhamım,
Calayır uc-uca gündüz-gecəni.
Asan alınmayıb hələ bir kamım,
Az olub günümün sakit keçəni.

Yaşa, ey əzabı böyük sənətim,
Ömür çürütmüşəm sənin yolunda.
Yeni cəfana da var dəyanətim,
Ağan da özüməm, fağır qulun da!

### O

Yoxdur bir kimsədən giley-güzarı,
Yazıb-yaratmaqdır dərdi, azarı.
Gördü ki, tükənir şeir bazarı
Sınadı qələmi romanlarda o.

Dilinə ömründə yalan gəlmədi,
Yaltaqlıq eləyib üzə gülmədi.
Asan yaşamağı şərəf bilmədi,
İşıqlı yol seçdi dumanlarda o.

Qatlaşdı zəhmətə binadan-başdan,
Halal çörəyini çıxartdı daşdan.
Nə bəxtdən yarıdı, nə dost-yoldaşdan,
Gah itdi, gah batdı gümanlarda o.

Köksündə bir kövrək ürək bəslədi,
Müqəddəs hisslərlə onu süslədi.
Car çəkib elləri haqqa səslədi,
Yaxşılıq axtardı yamanlarda o.

Döyüşdü, çarpışdı daim həyatla,
Hey qovhaqovlarla, hey çataçatla.
Ömür-gün keçirdi bir təmiz adla
Qarışıq, dolaşıq zamanlarda o.

Adı Vidadidi, soyu Babanlı,
Hər zülmə, zillətə tablı-tavanlı.
Mahalı Qazaxdı, kəndi Muğanlı,
Yaşayır qədərsiz ünvanlarda o.

### İNDİ QANMIŞAM

Bu sərsəm dünyadan baş açmadım heç,
İlahi, necə də mən nadanmışam!
Əqidə uğrunda, məslək yolunda
Ocağa qalanıb, oda yanmışam.

Bir kövrək rübabın bəm səsiyəm mən,
Haqqı ölənədək sevəsiyəm mən.
Böyük Füzulinin nəvəsiyəm mən,
Sitəm nəhrəsində çalxalanmışam.

Atəşli qəlbimdə qaynayır qanım,
Yaman gözdən iraq, babatdı canım.
Nə söz söykəyim var, nə də həyanım,
Qələmə, ilhama arxalanmışam.

Dövran bəyənmədi iti dilimi,
Vaxt oldu, çırpdılar hey mitilimi.
Ucuz şöhrətlərdən üzüb əlimi,
Mənliyi hər şeydən uca sanmışam.

Haldan-hala düşür ovqatım müdam,
Gah çiçəkli yazam, gah qarlı qışam.
Özüm də özümə heyran qalmışam -
Nə qədər dözümlü bir insanmışam?!

Babanlıyam, qüssə saldım ürəyə,
Durdum dərdlər ilə kürək-kürəyə.
Ömrün səksənini verib küləyə,
Həyatın dadını indi qanmışam.

### TANIDIĞIM ADAMLAR

Adam tanımaqda itidir fəhmim,
Qaçmır nəzərimdən nə yaxşı, nə pis.
Doğru zənddə mənə tay olmaz heç kim,
Tanrı vergisidi bu duyum, bu hiss.

Adam tanıyıram qəlp pul kimidi,
Özü də saxtadı, sözü də saxta.
Müftə kef-damaqlar yaşam çəmidi,
Ortalıqda yeyib, gəzir qıraqda.

Adam tanıyıram, heçdi mənliyi,
Öyünüb qürurla döyür döşünə.
Tula xislətlidi, tez duyur iyi,
Yem üçün az qalır yerə döşənə.

Adam tanıyıram, boşdu kəlləsi,
Boylanır dünyaya o, xumar-xumar.
Dəyməyib üzünə tövbə şilləsi,
Qoysan özbaşına Allahlıq umar.

Adam tanıyıram, “ən vacib işi”
Quyruq bulamaqdı böyük yanında.
Kişisiz yerlərdə sayılır kişi,
İrsi nökərçilik qalıb canında.

Adam tanıyıram, bilmir nədi ar,
Üzündən, gözündən yaltaqlıq yağır.
Ucuz mədhiyyələr dilində şüar,
Gah məğrur görsənir, gah olur fağır.

Adam tanıyıram, çox yekəxana,
Ədayla oturur, ədayla durur.
Əvəzsiz ləzzətdi lovğalıq ona,
Olmayan qeyrətdən bol-bol dəm vurur.

Adam tanıyıram, bibərdən acı,
Dinəndə ağzından zəhər tökülür.
Xışlayar hamını, olsa əlacı,
Kinli baxışından ürək sökülür.

Adam tanıyıram, irişir üzə,
Ən yaxşı dosta da badalaq qurur.
İçinin xıltını vermir büruzə,
Amansız zərbəni arxadan vurur.

Adam tanıyıram, bizlərdən iraq,
Lap köpək oğludu, desəm də azdı.
Hey nöqsan axtarır əlində çıraq,
Vicdanı ləkəli bir yaramazdı.

İstərdim dəniz tək çırpınsın millət,
Çürük bəndələri qovsun özündən.
Qalmasın canında köhnə bir illət,
Nəsillər su içsin bulaq gözündən.

Düzlüyə, mərdliyə açılsın meydan,
Dolaşsın hər yanı şöhrətim-şanım.
Ehtiram bəsləsin insana insan,
Cənnət-məkan olsun Azərbaycanım!

### MUĞAYAT OLUN

Uymayın, cənablar, şər əməllərə,
Namusdan-qeyrətdən muğayat olun.
Ər oğlu ərlərin varisləriyik,
Şərəfdən-şöhrətdən muğayat olun!

Biz salam verməşik, salam almışıq,
Qayğı göstərmişik, qeydə qalmışıq.
Zülmət beyinlərə ziya salmışıq,
O ali sərvətdən muğayat olun!

Kişilər tanınıb təmiz ad ilə,
Əsil-nəcabətlə, yaxşı zat ilə.
Ağılla, idrakla, etiqad ilə
Keçmişə hörmətdən muğayat olun!

Mərdlik babalardan əziz mirasdı,
O bizə məxsusdu, o bizə xasdı.
Xalqım ibtidadan qədirşünasdı,
İnsafdan-mürvətdən muğayat olun!

Millətim mətindi, sözün doğrusu,
Bir əlində oddu, bir əlində su.
Ürək güvəsidi vicdan ağrısı,
Saflığa rəğbətdən muğayat olun!

Babanlıyam, dözüm məziyyətimdi,
Düzlük, əyilməzlik əziyyətimdi.
Eşidin, bu sizə vəsiyyətimdi:
Mehri-məhəbbətdən muğayat olun!